**Xalq qəzeti**. - 2025.- 11 aprel. - № 70. - S. 6.

# Erməni terrorizmi yeni hədəf axtarışında

**Azər Mustafayev**

**Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçılıq müharibəsinin kökləri erməni tarixinin bəzi məqamlarını nəzərə almağı zəruri edir. Təcavüzkarlıq siyasəti erməni tarixinin mahiyyətindədir. Məhz buna görə beynəlxalq və daxili vəziyyətin imkan verdiyi tarixi şərait yaranan kimi, ermənilər xəyanətkar niyyətlərini reallaşdırmaq üçün bütün vasitələrdən istifadə edirlər.**

Təsadüfi deyil ki, terrorçuluq dünyada erməni mövcudluğunun bir əsası kimi müyyənləşdirilir. Əlbəttə erməni terrorizminin çox qaranlıq tarixi məqamları var. Xüsusilə qeyd olunmalıdır ki, bu terror təşkilatları beynəlxalq aləmdə yaranan ictimai-siyasi şəraitdən məharətlə istifadə edərək öz niyyətlərini həyata keçirmişlər. XX əsrin əvvəllərində erməni terror təşkilatları (daşnaklar) tərəfindən Osmanlı İmperiyası və Azərbaycan Xalq Cümhuriyyəti hökumətlərinin görkəmli nümayəndələrinin, xaricdəki türk diplomatlarının qətlə yetirilməsi və digər qanlı hadisələr hər birimizə məlumdur.

Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terror təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxsaylı insan tələfatına nail olmaq məqsədilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmişdir.

Hay terrorunun xronikası: Qarabağ münaqişəsi zamanı ilk terror aktlarından biri 1989-cu il sentyabrın 16-da Tbilisi–Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusu Ermənistan xüsusi xidmət orqanları tərəfindən partladıldı. Nəticədə 5 nəfər öldü, 25 nəfər yaralandı. O vaxtdan etibarən Azərbaycana qarşı erməni terrorunun coğrafiyası və miqyası daha da genişləndi. 1991-ci il mayın 30-da Dağıstanın Xasavyurt stansiyası yaxınlığında Moskva–Bakı qatarı partladıldı. Nəticədə, 11 nəfər həlak oldu, 22 nəfər yaralandı. 1991-ci il sentyabrın 8-də Ağdam–Xocavənd marşrutu ilə hərəkət edən sərnişin avtobusunun atəşə tutulması nəticəsində 5 nəfər həlak oldu, 34 nəfər yaralandı. Azərbaycanın istintaq orqanları terror aktını törədənlərin Volodya Xaçaturyan, Saro Yeremyan, Saşa Çalyan və Armo Arustamyan olduğunu sübut etdi.

Həmin gün erməni quldurları Ağdam–Qaradağlı sərnişin avtobusunu atəşə tutdular. Nəticədə 8 nəfər öldü, 42 nəfər müxtəlif bədən xəsarətləri aldı. 1992-ci il yanvarın 8-də Türkmənistandan “Krasnovodsk–Bakı” marşurutu ilə hərəkət edən dəniz bərəsində törədilən terror aktı nəticəsində 25 nəfər həlak oldu, 88 nəfər xəsarət aldı. 1993-cü il fevralın 28-də Rusiyanın Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında “Kislovodsk–Bakı” sərnişin qatarı partladıldı, 11 nəfər həlak oldu, 18 nəfər yaralandı.

1993-cü il iyunun 2-də Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəydi. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Milli Təhlükəsizlik Baş İdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etdi. İstintaq zamanı sübuta yetirildi ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törədib...

Qeyd etdiyimiz bu faktlar erməni terrorçularının Azərbaycana qarşı həyata keçirdikləri terror aktlarının kiçik bir hissəsidir. Eyni zamanda, Azərbaycan tərəfində bütün cinayətlərin Ermənistan Respublikasının xüsusi xidmət orqanlarının və diasporun fəal iştirakı ilə erməni terrorçuları tərəfindən törədilməsinə dair təkzibolunmaz sübutlar var.

Ermənistanın terror dövləti olmasını erməni alim bu günlərdə söylədiyi sözlərlə bir daha təsdiqləyib. “Ən əhatəli, sistemli və məqsədyönlü erməni ədalətli qisasının alternativi olmamalıdır, çünki bu, təkcə bizim şərəfimiz deyil, həm də nəsillərimizin təhlükəsizliyi məsələsidir”. Bu sözlər sıravi bir erməninin deyil, Ermənistandakı akademik dairələrin tanınmış nümayəndəsinə – iranşünas Vardan Voskanyana məxsusdur. Əgər yuxarıdakı sitatı hələ də mücərrəd şüar kimi qəbul etmək olarsa, o zaman Voskanyan açıq hədələrə keçir, faktiki olaraq, Azərbaycan vətəndaşlarına qarşı terror aktlarına çağırır. Voskanyanın təbirincə desək, Azərbaycanın İkinci Qarabağ müharibəsi zamanı, guya, beynəlxalq səviyyədə tanınmış müharibə qaydalarını pozduğu üçün belə hərəkətlərə haqq qazandırır. Yəni uydurma “mənəvi qisas” adı altında birbaşa azərbaycanlıların öldürülməsinə çağırış edilib. Ona görə də Voskanyanın təhdid və

çağırışlarına ciddi yanaşmaq lazımdır. Üstəlik, son vaxtlar Ermənistanda Azərbaycana və onun vətəndaşlarına qarşı ittiham və təhdid dalğası sürətlə artmaqdadır.

Məlumatlı mənbələr hazırda Ermənistanda terror aktlarına intensiv hazırlıq getdiyini yazır. "VOMA", ASALA, daşnaklar ölkəmizə qarşı terror müharibəsi üçün fəal şəkildə "müvafiq profilli mütəxəssislər" hazırlayırlar. Ermənistan ərazisində başqa terror qruplaşmaları da formalaşır və onların əksəriyyətinə Paşinyan hökuməti nəzarət etmir. Əslində, Ermənistan gözümüzün qabağında ikinci Livana çevrilir. Lakin Azərbaycanın öz suverenliyini və vətəndaşlarının təhlükəsizliyini müdafiə etmək üçün həm resursları, həm də hüququ var. Əgər Ermənistan ərazisindən birbaşa təhlükə yaranarsa, Azərbaycan özünümüdafiə məqsədilə terrorçulara qarşı məqsədyönlü hərbi əməliyyatlar həyata keçirə bilər

Ermənistanda terror qruplaşmasının yeni hədəflər müəyyən etməsi, Azərbaycanda, eyni zamanda, xaricdə ölkəmizin vətəndaşlarına qarşı planlaşdırmaq istədikləri terror hadisələrinə çağırışlar artmaqdadır. Ölkəmizə qarşı hər hansı bir təhlükə yaranarsa, Ermənistanda fəaliyyət göstərən bu terror qruplaşmalarını məhv etmək üçün Azərbaycan hansı addımları ata bilər?

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq Tural İsmayılov XQ-yə bildirdi ki, Ermənistan daim terrorçuluqdan yararlanan və terroru rəsmi şəkildə dövlət siyasəti halına gətirən bir ölkədir. Bütövlükdə biz elə Ermənistan terror dövlətidir ifadəsini işlədəndə Hayastanın terroryönümlü ölkə olması və qlobal terrorizmi dövlətin əsas ictimai-siyasi ideololi xətti kimi müəyyənləşdirməyini hər zaman nəzərdə tutmuşuq. Revanşistlərdən sonrakı dövrdə Nikol Paşinyan hakimiyyəti liberal maskası taxsa da, reallıqda terrorçuluq qafasını və mahiyyətini daşımaqda davam edir.

Politoloq əlavə edib ki, bu gün Paşinyan tərəfindən atılan addımlar Ermənistanın hazırki hakimiyyətinin rasional siyasi qərarlar qəbul edə bilməməyi, eyni zamanda, ölkədə terrorçu və revanşist əhval-ruhiyyənin hələ də Ermənistan ictimai rəyində avanqard olmağına çalışması bizim hansı təhlükələr ilə üz-üzə olduğumuzu növbəti dəfə göstərir. Əlbəttə ki, Azərbaycan Ermənistana bu terrorçu təşkilatlar tərəfindən Azərbaycan əleyhinə səsləndirilən fikirlər, ittihamlar ilə bağlı praktiki addımlar atılmağını söyləyə bilər. Və bununla bağlı Ermənistana bir çox çağırışlar edilib. Eyni zamanda, Ermənistanda "VoMa", "Daşnaksütyun" və sair terror qafalı təşkilatlara qarşı bu günə qədər beynəlxalq reaksiya da adekvat olmayıb.

Əfsuslar olsun ki, bundan sonrakı dövrdə də beynəlxalq reaksiyanın hər hansı bir formada Ermənistana təzyiqlər göstərəcəyini güman etmirəm. Amma hesab edirəm ki, Azərbaycan öz imkanları ilə Ermənistanın bu terrorçu təşkilatlara himəyadarlıq etməyinin qarşısını ala bilər və zamanı gəldikdə qəti addımlar atılacaqdır. Gələcəkdə sülh müqaviləsi ilə bağlı danışıqlarda bu tip təşkilatların fəaliyyətinin dayandırılması ilə bağlı Ermənistan qarşısında bir tələb də qoyula bilər.

Rəsmi İrəvanın həm daxili, həm də xarici siyasətdəki uğursuzluqları fonunda revanşizm Ermənistan cəmiyyətində ictimai fikrin əsas bazası kimi qalmaqda davam edir. Əslində, Ermənistan hakimiyyəti də revanşizmin ictimai rəydə aparıcı ideologiya kimi qalmasında maraqlıdır. Bu meyillərdən ruhlanan terrorçu qruplaşmalar da yeni hədəf axtarışındadır və məqsədlərini də açıqlayıblar. Hayastandakı terror qruplarına Paşinyan hökuməti nəzarət edə bilmir.

Əlbəttə, bu yerdə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın öz məsuliyyətini hiss etməsi üçün dəfələrlə səsləndirdiyi "Dəmir yumruq" ifadəsini xatırlatmaq yerinə düşər. "Dəmir yumruq" bu gün də yerindədir! Ermənistan yaxın tarixi keçmişindən dərs almalıdır. Sonra gec olacaq.